AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci Gənc Alim və Mütəxəssislərin müsabiqəsinin (EİF/GAM-2013-2(8)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

# YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycanda dövlət idarəçiliyi sahəsində innovativ texnologiyaların tətbiqi: problemlər və perspektivlər**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Cahangirli Cahangir Xanoğlan oğlu**
Qrantın məbləği: **6 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-2-2013-2(8)-25/24/5-M-11**
Müqavilənin imzalanma tarixi: **01 aprel 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il – 01 may 2015-ci il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
|---|---|
| | Ümumiyyətlə, dövlətin və cəmiyyətin mövcud olduğu bütün dövrlərdə idarəetmənin səmərəliliyi məsələsi cəmiyyət üzvlərini düşündürmüşdür. Dövlət idarəçiliyi, bütövlükdə cəmiyyətin mövcudluğunun və inkişafının lokomotivi kimi qəbul oluna bilər. Bunu nəzərə alaraq layihə üzrə aparılan elmi tədqiqat işində dövlət idarəçiliyinin təbiətinə bir daha aydınlıq gətirilmiş və onun formaları nəzərdən keçirilmişdir. Dövlət idarəçiliyinin səmərəliliyinin təmin edilməsini şərtləndirən ilkin addım elə məhz dövlət idarəçiliyinin mahiyyətinin dərindən dərk edilməsi ilə birbaşa bağlıdır. Həmçinin, xarici təcrübədə və Azərbaycan Respublikasında səmərəli dövlət |



08.05.2015
IV mərhələ
01.02.2015 – 01.05.2015

idarəçiliyinin təmin edəcək innovativ texnologiyaların xüsusiyyətləri və tətbiqi səviyyəsi tədqiq olunmuşdur.

Layihə çərçivəsində Azərbaycanda dövlət idarəçiliyi sahəsində innovativ texnologiyaların tətbiqi imkanları araşdırılmış, dünya ölkələrinin və yerli təcrübənin öyrənilməsi ilə müasir dövrün tələblərinə uyğun elmi əsaslara söykənən dövlət idarəçiliyinin nəzəri və fundamental əsasları işlənib hazırlanmışdır. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf konsepsiyasında dövlət idarəçiliyi ilə bağlı nəzərdə tutulan prinsiplərin elmi cəhətdən analizi həyata keçirilmişdir. Dörd mərhələdə icra edilən layihədə müvafiq olaraq aşağıdakı istiqamətlər üzrə problemin fundamental tədqiqatı aparılmışdır:

- "Dövlət idarəçiliyi", xüsusən də "innovativ dövlət idarəçiliyi" anlayışları və onların mahiyyəti, formalarının nəzəri cəhətdən öyrənilməsi;
- Dövlət idarəçiliyinə müasir yanaşmalar, səmərəli dövlət idarəçiliyi (Good Governence) modelinin və dövlət idarəçiliyi sahəsində mövcud olan innovativ texnologiyaların araşdırılması;
- Dövlət idarəçiliyi sahəsində xarici ölkələrin təcrübəsinin öyrənilməsi (Norveç, İsveç və İsrailin dövlət idarəçiliyi modelleri)
- Müstəqillik qazandıqdan sonrakı dövrdən başlayaraq bu günə qədər keçən dövr ərzində Azərbaycanda dövlət idarəçiliyinin keçdiyi inkişaf yolu, hazırkı vəziyyətin təhlil edilməsi və inkişaf etdirilməsi üçün potensial imkanların üzə çıxarılması;

Dövlət idarəçiliyi sahəsində innovasiyaları dövlət siyasətinin həyata keçirilməsi prosesində meydana çıxan problemlərin aradan qaldırılmasının yeni standartlarının və ya yollarının tətbiqi kimi anlamaq mümkündür. Aparılan araşdırmalar nəticəsində o qənaətə gəlinmişdir ki, innovasiyaların tətbiqi heç də həmişə arzuolunan nəticələrə gətirib çıxartmır, əksinə bir çox hallarda neqativ nəticələri şərtləndirir. Bu baxımdan innovasiyaların tətbiqi zamanı vacib amilləri nəzərə almaq lazımdır. Bunlar aşağıdakılardan ibarətdir:

- effektiv texnologiyaların seçilməsi;
- ən yaxşı təşkilat formasının seçilməsi;
- yeniliklərin tətbiqini şərtləndirəcək təşkilati mühitin yaradılması;
- ən uğurlu potensial layihələrin seçilməsi;

İnnovasiyaların tətbiqi müxtəlif qruplar tərəfindən həyata keçirilən çoxmərhələli prosesdir. Dövlət idarəçiliyində innovasiyalarin tətbiqi zamanı israrlı olmaq tələb olunur. Çünki, gözlənilən nəticələrin əldə edilməsi mütləq zaman tələb edəcəkdir. Buna baxmayaraq, dövlət idarəçiliyində innovativ texnologiyaların tətbiqi müasir zamanın tələbi kimi nəzərdən keçirilməkdədir. Dövlət idarəçiliyi sahəsində islahatların beynəlxalq təcrübəsi qeyd etməyə əsas verir ki, dövlət qulluğunun və dövlət idarəçiliyinin səmərəliliyi artıq bürokratik mexanizmlərin hansı səviyyədə həyata keçirilməsindən daha çox, hansı innovativ texnologiyaların və hansı səviyyədə tətbiqindən asılıdır.

Dövlət idarəçiliyində innovativ texnologiyaların və səmərəliliyin mahiyyətini müəyyən edən bir neçə nəzəri-metodoloji yanaşmalar mövcuddur. Səmərəli dövlət idarəçiliyi anlayışının səciyyəvi məzmununu "giriş-çıxış" nisbətinin modeli əsasında müəyyən etmək mümkündür. Bu model ümumilikdə siyasi sistemin fəaliyyətini səciyyələndirir. Sistemin "girişində" cəmiyyətin tələbləri yer alır. Bu tələblər müvafiq qərarların qəbulunu və idarəedici subyektin dəstəklənməsini şərtləndirir. "Çıxışda" həyata keçirilən qərarların və idarəedici subyektin çatdığı məqsədlərin

nəticəsi kimi obyektin real dəyişikliyi yer alır. "Giriş-çıxış" sistem modelinin daxilində alt sistemlər formalaşırlar və fəaliyyət göstərirlər. Bunlar dövlətin ayrı-ayrı daxili idarəetmə orqanlarının fəaliyyətini ifadə edirlər. Bu kontekstdə "qismən səmərəlilik" və "tam səmərəlilik" anlayışlarından istifadə edilir. Qismən səmərəlilik problemlərin bir qisminin həllini səciyyələndirir. Bu bir qayda olaraq ümumi məqsədin ayrı-ayrı tərkib hissələrindən ibarət olur. İkinci halda isə problemin bütövlükdə kompleks şəkildə uğurlu həllini ifadə edir. Bu da öz növbəsində idarəedici subyektin yekun məqsədini təşkil edir. Qeyd edək ki, dövlət idarəçiliyi sistemi üçün nəzərdən keçirilən anlayış ümumilikdə daha çox "tam səmərəlilik" kimi izah edilir.
Müasir mərhələdə informasiya-kommunikasiya texnologiyalarının üstün imkanlarından istifadə etmədən dövlət idarəçiliyinin təkminləşdirilməsinin qeyri-mümkünlüyünü sübut etmək üçün əlavə arqumentlərə ehtiyac yoxdur. Məhz buna görə də layihə çərçivəsində dövlət idarəçiliyində informasiya və kommunikasiya texnologiyalarının rolu, həmçinin elektron hökumət məsələləri və bu sahədə xarici dövlətlərin təcrübəsi analiz edilmiş, Azərbaycanda elektron hökumət, dövlət idarəçiliyində son dövrlər gedən elektronlaşma prosesi araşdırılmışdır.
Layihə üzrə aparılmış elmi-tədqiqat zamanı beynəlxalq təcrübədə mövcud olan və dövlət idarəçiliyinin innovativliyinin və səmərəliliyinin qiymətləndirilməsi nəzərdə tutan müxtəlif inteqral göstəricilər, hansı ki, beynəlxalq təşkilatlar tərəfindən işlənib hazırlanmışdır, geniş araşdırılmışdır. Bu göstəriciləri aşağıdakı kimi nəzərdən keçirmək mümkündür:
1. GRİCS (Governance Research Indicator Country Snapshot) göstəricisi. Bu göstərici dövlət idarəçiliyinin səmərəliliyini ölkələrarası müqaisədə qiymətləndirir. Göstərici dövlət idarəçiliyinin altı parametrini ifadə edən çoxsayı dəyişikliklər əsasında işlənmişdir. Bu parametrlər ümumi müəyyənləşdirmə əsasında seçilmişlər. Onlara əsasən dövlət idarəçiliyi ənənələrin və institusional təşkilatların məcmusu kimi başa düşülür və özünə bunları daxil edir: a) seçki prosesi, hökumətin nəzarəti və dəyişməsi; b) hökumətin siyasəti formalaşdırmaq və həyata keçirmək bacarığı; c) cəmiyyətdə sosial və iqtisadi qarşlıqlı fəaliyyətə rəhbərlik edən institutlara vətəndaşların və dövlətin hörməti. Qeyd edək ki, qiymətləndirmə aşağıdakı altı indeks üzrə aparılmışdır:
- səsvermə hüququ və hesabat. Bu indeks özünə siyasi proseslərin, insan azadlıqlarının və siyasi hüquqların müxtəlif aspektlərini analiz edən göstəriciləri daxil edir;
- siyasi sabitlik və zorakılığın olmaması. Bu indeks hökumətin mümkün qeyri-sabitlik ehtimallarını ölçür;
- hökumətin səmərəliliyi. Bu indeks dövlət xidmətlərinin keyfiyyətini əks etdirir, dövlət qulluqçularının peşəkarlığını dövlət qulluğunun siyasi təsirlərdən asılılıq səviyyəsini və s. ölçür;
- qanunvericiliyin keyfiyyəti. Bu indeksin mənası həyata keçirilən siyasətlə bağlıdır;
- qanunun aliliyi. Bu indeks vətəndaşların cəmiyyətin qanunlarına etibarının səviyyəsini ölçür;
- korrupsiya nəzarəti. Bu indeks cəmiyyətin korrupsiyaya münasibətini müəyyənləşdirir.
2. Bu qrup göstəricilər dövlət siyasətinin, işgüzar mühitin, tənzimləmə keyfiyyətinin, korrupsiya səviyyəsinin, dövlət qulluqlarının və s. müqaisəli analizini almağa imkan verir.
3. Üçüncü qrup göstəricilər idarəetmə keyfiyyətinin müqaisəli qiymətləndirməsini almağa imkan verir;
4. Qeyri-şəffaflıq gösəriciləri ölkənin qeyri-şəffaflığının kapital qoyuluşunun səmərəliliyinə və dəyərinə təsirini qiymətləndirməyə imkan verir;

| | |
|---|---|
| | 5. Dövlət idarəçiliyinin səmərəliliyinin göstəriciləri. Bu göstəricilər dövlət qulluqçularının və əhalinin vəziyyətinin öyrənilməsi əsasında ölçülür və s.<br>Layihənin həyata keçirilməsi zamanı, əsasən empirik və nəzəri tədqiqat metodları, həmçinin müqayisəli analiz metodundan istifadə olunmuşdur.<br>Beləliklə, layihədə Azərbaycan üçün vacib olan dövlət idarəçiliyində innovativ texnologiyaların tətbiqinin müasir vəziyyətinin fundamental-elmi təhlili öz əksini tapmiş, inkişaf etmiş dövlətlərin (xüsusən də Norveç, İsveç və İsrail) dövlət idarəçiliyi sahəsində təcrübələri öyrənilmiş, bu təcrübənin Azərbaycanda tətbiq edilməsi imkanları araşdırılmışdır. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *85 %* |
| 3 | Hesabat dövründə alınmış (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | 1. Müasir elmdə dövlət idarəçiliyi anlayışına vahid yanaşmanın hələ də mövcud olmaması onun mahiyyətinin daha dərindən dərk edilməsinə mane olur;<br>2. Dövlət idarəçiliyinin müasir formaları özündən əvvəlkilərindən daha effektiv, səmərəli və operativ olması ilə seçilir ki, bu da idarəçilik sahəsində mövcud olan innovativ texnologiyaların səviyyəsi ilə ölçülür. |
| 4 | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | 1. **"Səmərəli dövlət idarəçiliyi və innovativ texnologiyalarin tətbiqi"** adlı məqalə İnformasiya Cəmiyyəti Problemləri Elmi-praktiki jurnalında (№2/2014-cü il) dərc olunmuşdur (səh. 78-86).<br>2. **"İKT dövlət idarəçiliyinin səmərəliliyinin artırılması vasitəsi kimi"** adlı məqalə 2-5 dekabr 2014-cü il tarixdə 20-ci yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgi və Konfransı (BakuTel 2014) çərçivəsində Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti və AMEA İnformasiya Texnologiyaları İnstitutunun təşkilatçılığı ilə "Elektron dövlət quruculuğu problemləri" I Respublika elmi-praktiki konfransının əsərlərində dərc olunmuşdur (səh. 47-48).<br>3. **"NATO-ya üzv olan ölkələrin dövlət idarəçilik modeli (Norveç nümunəsi)"** adlı tezis NATO-nun UELS sammitindən sonra Şimali Atlantika İttifaqı və tərəfdaş ölkələr arasında əməkdaşlıq mövzusunda Beynəlxalq konfransın məruzə və tezislər toplusunda (2015-ci il) dərc olunmuşdur (səh. 123-125).<br>4. **"Elektron hökumətin informasiya təhlükəsizliyinin təmin olunması problemi"** adlı məqalə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, AMEA və İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə 2015-ci il mayın 14-də keçiriləcək "İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II Respublika elmi-praktiki konfransı"nın əsərlərində dərc olunmuşdur (səh. 167-169). |

5. **"Dövlət idarəçiliyi: anlayişi, mahiyyəti və müasir formalari"** adlı məqalə Azərbaycan Respublikasının Prezdidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəçiliyi, nəzəriyyə və təcrübə" adlı elmi-nəzəri jurnala çapa qəbul olunmuşdur.

6. **"İnformasiya cəmiyyətinin qurulması – innovativ dövlət idarəçiliyinin tələbi kimi"** adlı məqalə (Əhmədov Nağı – həmmüəllif) çap olunmaq üçün Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və Bakı Avrasiya Universitetinin birgə təşkilatçılığı ilə 26-28 noyabr 2014-cü il tarixdə keçirilmiş "İnformasiya cəmiyyəti müasir müdafiə və hücum sisteminin əsası kimi" mövzusunda Gənc alimlərin Beynəlxalq Konfransına çapa göndərilmişdir.

7. **"Эффективное государственное управление в Азербайджанской Республике: реалии и перспективы"** adlı məqalə "Центральная азия и кавказ" журнал социально-политических исследований çapa göndərilmişdir.

8. **"Azərbaycanda dövlət qulluğu sahəsində innovasiyaların tətbiqi"** adlı məqalə hazırdır, lakin çapa hələ göndərilməyib)

| | |
|---|---|
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |

Səmərələşdirici təkliflər:
- Dövlət idarəçiliyində operativliyin təmin olunması və vaxt itkisinin qarşısının alınması məqsədilə vahid elektron mərkəzin yaradılması (bütün rəsmi yazışmalar, məktublaşmalar, məsləhətləşmələrin həyata keçirilməsinə imkan verəcək);
- Dövlət qulluğuna qəbul prosesinin şəffaflığının təmin olunması və dövlət qulluğunda rəqabətliliyinin artırılması məqsədilə qəbul prosesinə (əsasən də müsahibə mərhələsi) ictimai nəzarətin gücləndirilməsi; dövlət qulluğunda yaş senzinin tətbiqinə nəzarət və dövlət qulluğu komissiyasından kənar dövlət qulluğuna qəbulun (müvəqqəti müqavilə ilə işə götürmə də daxil olmaqla) aradan qaldırılması;
- Dövlət idarəçiliyində səmərəliliyin artırılması məqsədilə innovativ texnologiyaların tətbiq edilməsi (belə innovativ texnologiyalara misal olaraq SMART texnologiyalarını göstərmək olar. Bu texnologiyalarda istifadə olunan əsas alət rolunda KPI (Key Performance Indicators - səmərəliliyin açar göstəricisi) sistemi çıxış edir. Bu alət məqsədə çatmağın mümkünlüyünü müəyyənləşdirməyə imkan verir. Bununla da, o, bir növ məqsədlərin idarə olunması aləti kimi nəzərdən keçirilə bilər. Qeyd edək ki, KPI sistemində dövlət strukturlarında heyətin idarə olunması idarəetmənin aparıcı alətlərindən biri kimi nəzərədən keçirilir. Azərbaycan Respublikasında belə metodların tətbiqi təcrübəsi hələ oturuşma mərhələsindədir. Dövlətin inkişaf strategiyasının uğurla həyata keçirilməsi dövlət hakimiyyətinin bütün səviyyələrində idarəetmənin səmərəliliyinin artırılmasını tələb edir. Bu texnologiyanın tətbiqi nəticəsində konkret subyektlərin fəaliyyətinin səmərəliliyinin göstəriciləri sisteminin yaradılması mümkün olacaq.)

| | |
|---|---|
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(burada doldurmalı)* |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | - "Elektron dövlət quruculuğu problemləri" I Respublika elmi-praktiki konfransı (2014-cü il) - Ölkədaxili – Plenar;<br>- 2-5 dekabr 2014-cü il tarixdə 20-ci yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgi və Konfransı (BakuTel 2014) çərçivəsində Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti və AMEA İnformasiya Texnologiyaları İnstitutunun təşkilatçılığı ilə "Elektron dövlət quruculuğu problemləri" I Respublika elmi-praktiki konfransı - Ölkədaxili - Dəvətli;<br>- NATO-nun UELS sammitindən sonra Şimali Atlantika İttifaqı və tərəfdaş ölkələr arasında əməkdaşlıq mövzusunda Beynəlxalq konfransın (2015-ci il) - Beynəlxalq - Dəvətli;<br>- Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, AMEA və İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə (14 may 2015-ci il tarixində keçiriləcək) - Ölkədaxili - Dəvətli. |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(burada doldurmalı)*<br>1. Noutbuk kompüter – 1 ədəd<br>HP2000-2d84SR Core i5-3230M, 2.6GHz, 4 GB RAM, 750 GB HDD, DVD+/-RW, Intel HD 4000, WiFi, BT, 15.6 HD w/CAM display, Win8 64 Rus S/N: 5CG3502DJ3<br>2. Çoxfunksiyalı printer 3-ü 1-də - 1 ədəd<br>HP Laser Jet Pro M1132 MFP A4, 18 ppm, 1200 dpi, 8MB, USB, Faltbed<br>S/N: CNJ8FDXFFR<br>3. Lisenziyalı proqram təminatı – MS Office 2013 std (ingilis dilində) – 1 ədəd<br>4. 1 illik lisenziyalı proqram təminatı – Kaspersky Antivirus 2014 – 1 ədəd |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Regional İqtisadi və Sosial Araşdırmalar" İnstitutu, "Rəhbər dövlət idarəçiliyi kadrlarının ixtisasının artırılması" İnstitutu, "Dövlət İdarəçiliyində İnformasiya Texnologiyaları" kafedrası, "Dövlət qulluğu və kadr siyasəti" kafedrası, "Fəlsəfə və sosial psixologiya kafedrası", Azərbaycan Turizm və Menecment Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasının müəllim və professor heyəti, AMEA İnformasiya Texnologiyaları İnstitutunun və AMEA-nın İnsan Hüquqları üzrə |

| | |
|---|---|
| | Elmi-Tədqiqat İnstitutunun Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları ilə məsləhətləşmələr. |
| **12** | Xarici həmkarlarla əlaqələr |
| | Türkiye ve Orta Doğu Amme İdaresi Enstitüsü (TODAİE)-nin müəllim və professor heyət ilə ikitərəfli əlaqələr |
| **13** | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | AR DİA-nın I kursunda kompüter elmləri ixtisası üzrə təhsl alan tələbələrinə İnformasiya cəmiyyəti və elektron hökumət fənni tədris edilmişdir. |
| **14** | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | 2–5 Dekabr 2014, XX Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgi və Konfransı |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | Azərbaycan regionlarında dövlət idarəçiliyində innovativ texnologiyaların tətbiqinin mövcud vəziyyəti və bu sahədə praktiki işlərin gedişatı haqqında Dövlət İdarəçilik Akademiyasında qısamüddətli ixtisasartırma kurslarında iştirak edən rayon icra hakimiyyətləri və digər dövlət qurumlarının nümayəndələri ilə müzakirə və disskusiyaların keçirilməsi. |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)* |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı
_______________
*(imza)*
"08" may 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı
_______________
*(imza)*
"08" may 2015-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Cahangirli Cahangir Xanoğlan oğlu
_______________
*(imza)*
"08" may 2015-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci Gənc Alim və Mütəxəssislərin müsabiqəsinin (EİF/GAM-2013-2(8)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Azərbaycanda dövlət idarəçiliyi sahəsində innovativ texnologiyaların tətbiqi: problemlər və perspektivlər**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Cahangirli Cahangir Xanoğlan oğlu**

Qrantın məbləği: **6 000 manat**

Layihənin nömrəsi: **EİF/GAM-2-2013-2(8)-25/24/5-M-11**

Müqavilənin imzalanma tarixi: **01 aprel 2014-cü il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il – 01 may 2015-ci il**

### 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | - Dövlət idarəçiliyi sahəsində siyasət müəyyənləşdirilərkən onun nəzəri-konseptual tərəfləri mütləq ciddi analiz edilməli və bu siyasət elmi əsaslara söykənməlidir;<br>- Dövlət idarəçilik sisteminin səmərəli fəaliyyətinin təmin olunması məqsədilə alternativ metod və vasitələr işlənib hazırlanmalı, innovativ texnologiyaların tətbiqi genişləndirilməlidir;<br>- Dövlət qulluğunda rəqabətliliyin artırılmasına nail olmaq üçün bu sistemə qəbul prosesində şəffaflılığının gücləndirilməsi və dövlət qulluqçularının bilik və bacarıqlarına müvafiq obyektiv və düzgün qiymətləndirilməsinin üsullarının tapılması; |

- Ölkədə kadr təhlükəsizliyi probleminin ciddiliyinin qəbul edilməsi, istedadlı gənclərin dövlət orqanlarında çalışmağa təşviq edilməsi məqsədilə dövlət qulluqçularının maddi və sosial təminatlarının gücləndirilməsi, bu sahədə inkişaf etmiş dövlətlərin qabaqcıl, innovativ təcrübələrinin tətbiq edilməsi;
- Dövlət idarəçiliyində operativliyin və effektivliyin artırılması məqsədilə struktur islahatlarının həyata keçirilməsi, eyni və ya oxşar funksiyaları həyata keçirən dövlət qurumlarının ləğv edilməsi və ya birləşdirilməsi yolu ilə büdcə yükünün azaldılması;
- Mərhələli şəkildə rayon və şəhər icra hakimiyyəti orqanlarının səlahiyyətlərinin azaldılması və onların, həmçinin mərkəzi icra hakimiyyəti orqanlarının (nazirliklər) bəzi səlahiyyətlərinin yerli idarəetmə orqanları və bələdiyyələrinə verilməsi ilə onların səlahiyyətlərinin artırılması (Norveç təcrübəsindən də gördüyümüz kimi idarəetmədə dövlətin yükünü azaldılması, izafi maliyyə xərclərinin aradan qaldırılması üçün bələdiyyələrin rolunun artırılması ölkədə ümumi inkişafa aparır);
- Vətəndaşların dövlətə olan inamını artırmaq üçün onların idarəetmə işlərinə cəlb edilməsi (İsveç təcrübəsi bu sahədə Azərbaycan üçün də uğurlu addım ola bilər, belə ki, İsveçdə vətəndaşlardan ibarət yerli icmalar bələdiyyələrin və yerli dövlət orqanlarının qərar qəbul etmə prosesində iştirak edir, qəbul edilən qərarların əsas icraçıları vətəndaşlar olduqları üçün özlərinin problemlərini dövlət işçilərindən onlar daha yaxşı bilirlər, bu qəbul edilən qərarların daha çox praktikida tətbiqini asanlaşdırır, həmçinin qərar qəbulunda iştirak edən vətəndaş onun icrasında öz rəyi öyrənilmədən qəbul edilən qərarlara nisbətən daha çox maraqlı olur)
- Dövlət idarəçiliyində bürokratik əngəllərin və süründürməçiliyin tamamilə aradan qaldırılması, heç olmasa minimuma endirilməsinə nail olmaq üçün vətəndaşların ərizə, şikayət, istək və təkliflərinin zamanında və ədalətli həll edilməsi məqsədilə bütün nazirilik, komitələr və digər dövlər orqanlarının müvafiq funksiyalarını özündə birləşdirən vahid bir mexanizmin yaradılması, bu mexanizm çərçivəsində ayrıca bir xidmətin yaradılması (bu ASAN Xidmətə də həvalə edilə bilər) və qəbul edilmiş vətəndaşların ərizə, şikayət, istək və təkliflərini aidiyyəti orqanlara yönləndirilməsi və prosesin nəzarət altında saxlanılması (Norveç Krallığında oxşar təcrübə mövcuddur, belə ki, vahid elektron portal vasitəsilə vətəndaşlar və dövlət qurumları arasında münasibətlər tənzimlənir və hər bir qurumun işinin nəticəsi ictimaiyyət üçün açıqlanır, beləliklə, hansı qurumun fəaliyyətinin daha düzgün qurulduğu və vətəndaşlara xidmətin yüksək səviyyədə olması üzə çıxır);
- Xarici dövlətlərin, xüsusilə də inkişaf etmiş dövlətlərin dövlət idarəçiliyi sahəsində əldə etdikləri nailiyyətlər öyrənilməli və onların Azərbaycanda tətbiq olunması imkanları dərindən analiz edilməlidir. Dünya sürətlə inkişaf edir və inkişafdan geri qalmamaq və qısa zamanda müvəffəqiyyət qazanmaq üçün mütləq başqalarının uğurlarından istifadə etmək lazımdır. Əgər biz zamanında innovativ ideyaların və texnologiyaları öz dövlət idarəçiliyimizdə tətbiq edə bilməsək son nəticədə bu ölkədə durğunluğa və dünyada gedən ümumi inkişafdan geri qalmağa gətirib çıxaracaq;
- Dövlət idarəçiliyində İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) tətbiqinin arealını genişləndirilməli, elektron hökümətə keçid prosesini daha da gücləndirilməlidir;
- Azərbaycanda dövlət idarəçiliyi sahəsində mövcud olan problemlər və onların həlli yolları sistemli şəkildə kompleks öyrənilməlidir. İnkişafa nail olmaq üçün ilk növbədə mövcud problemlər və çatışmazlıqlar dəqiq müəyyən edilməli, bu problemlər və çatışmazlıqların aradan qaldırılması üçün onları törədən səbəblər müyyən edilməli və aradan qaldırılmalıdır;
- Azərbaycanda dövlət idarəçiliyinin inkişafı sahəsində bütün mümkün vasitələr və imkanlar dəqiqləşdirilməli və səfərbər edilməlidir. İnkişaf üçün mövcud potensialın dəyərləndirilməsi və onun daha da inkişaf etdirilməsi zəruridir. Bu baxımdan Azərbaycanda həyata keçirilən

| | |
|---|---|
| | "Qara qızılın insan kapitalına çevrilməsi" siyasəti sürətləndirilməli, yalnız sözdə deyil, əməldə də bu işə töhfə verilməlidir. Bu da ilk növbədə ölkədə mövcud olan təhsil sisteminin müasir dövrün tələblərinə uyğunlaşdırılması, inkişaf etmiş dövlətlərin təhsil sahəsində uğurlarının tətbiq edilməsi və dövlətin bu sahəyə maddi dəstəyinin gücləndirilməsindən birbaşa asılıdır;<br>- Dövlət idarəçiliyində innovativ texnologiyaların tətbiqi və yuxarıda qeyd olunan bütün bu nəticələrin gerçəkləşdirilməsi ilk növbədə siyasi iradədən asılıdır, ölənin inkişafına nail olmaq və inkişaf etmiş dünya dövlətləri səviyyəsinə çatmaq üçün dövlət idarəçiliyi sahəsində kompleks, vahid bir konsepsiya işlənib hazırlanmalı və dövlətin müvafiq strukturları tərəfindən icrası təmin olunmalıdır. |
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)* |

## 2. Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | Gəlinən nəticələr Azərbaycanda dövlət idarəçiliyi sahəsində həyata keçiriləcək islahatlarda, dövlət idarəçiliyinə aid dövlət proqramlarının və qanunvericilik aktlarının qəbulu zamanı nəzəri mənbə rolunda çıxış edə bilər. Həmçinin, dövlət qulluğu kadrlarının hazırlanmasında, eyni zamanda onların ixtisas artırma kurslarında tədris vəsaiti kimi istifadə edilə, innovativ dövlət idarəçiliyi ilə maraqlananlar, xüsusilə də bu mövzuda doktorluq, dissertasiya və digər elmi tədqiqat işi yazan araşdırlmaçılar üçün elmi-nəzəri mənbə kimi faydalı ola bilər. |

**SİFARİŞÇİ:**

**Elmin İnkişafı Fondu**

**Müşavir**

Babayeva Ədilə Əli qızı

_______________

*(imza)*

"14" may 2015-ci il

**Baş məsləhətçi**

Daşdəmirova Xanım Faiq qızı

_______________

*(imza)*

"14" may 2015-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**

Cahangirli Cahangir Xanoğlan oğlu

_______________

*(imza)*

"__" ________ 201_-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci Gənc Alim və Mütəxəssislərin müsabiqəsinin (EİF/GAM-2013-2(8)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Azərbaycanda dövlət idarəçiliyi sahəsində innovativ texnologiyaların tətbiqi: problemlər və perspektivlər**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Cahangirli Cahangir Xanoğlan oğlu**
Qrantın məbləği: **6 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-2-2013-2(8)-25/24/5-M-11**
Müqavilənin imzalanma tarixi: **01 aprel 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il – 01 may 2015-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | Yoxdur | Yoxdur | Yoxdur |
| | həmçinin, xaricdə çap olunmuş | Yoxdur | Yoxdur | Yoxdur |
| 2. | Məqalələr | 1 | 3 | 1 |
| | həmçinin xarici nəşrlərdə | Yoxdur | Yoxdur | 1 |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Konfrans materiallarında məqalələr | | | |
| | O cümlədən, beynəlxalq konfras materiallarında | 1 | Yoxdur | Yoxdur |
| 4. | Məruzələrin tezisləri | 1 | 1 | Yoxdur |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | 1 | Yoxdur | Yoxdur |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | Yoxdur | Yoxdur | Yoxdur |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | Yoxdur | Yoxdur | Yoxdur |
| 2. | İxtira | Yoxdur | Yoxdur | Yoxdur |
| 3. | Səmərələşdirici təklif | | 3 | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | "Elektron dövlət quruculuğu problemləri" I Respublika elmi-praktiki konfransı (2014-cü il) | Ölkədaxili | Plenar | 1 |
| 2. | NATO-nun UELS sammitindən sonra Şimali Atlantika İttifaqı və tərəfdaş ölkələr arasında əməkdaşlıq mövzusunda Beynəlxalq konfransın (2015-ci il) | Beynəlxalq | Dəvətli | 1 |
| 3. | 2-5 dekabr 2014-cü il tarixdə 20-ci yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgi və Konfransı (BakuTel 2014) çərçivəsində Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər | Ölkədaxili | Dəvətli | 1 |

| | | | | |
|---|---|---|---|---|
| | Akademiyası Rəyasət Heyəti və AMEA İnformasiya Texnologiyaları İnstitutunun təşkilatçılığı ilə “Elektron dövlət quruculuğu problemləri” I Respublika elmi-praktiki konfransı | | | |
| 4. | Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, AMEA və İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə 14 may 2015-ci il | Ölkədaxili | Dəvətli | 1 |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

__________________
*(imza)*
“14” may 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

__________________
*(imza)*
“14” may 2015-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Cahangirli Cahangir Xanoğlan oğlu

__________________
*(imza)*
“__” ________ 201_-ci il